# QURANDAN NÖQTƏLƏR

<"xml encoding="UTF-8?>

QURANDAN NÖQTƏLƏR

Quranın ən əzəmətli ayəsi hansıdır?

Quranın ən əzəmətli ayəsi "Bismillahir- rəhmanir- rəhim"dir.

Quranın neçə surəsində vacib səcdə var?

Quranda dörd surəsinin vacib səcdəsi var. Nəcm, Fussilət, Ələq, Səcdə.

Hansı surə Quranın anası kimi məşhurdur?

Quranın anası kimi məşhur olan surə Fatihə surəsidir.

Quran ən uca ayəsi hansıdır?

Quranın ən uca ayəsi, "Ayətəl- kürsü"dür.

Peyğəmbərimizin (s) buyurduğuna əsasən o surələr məni qocaltı, hansı surələrdir?

Məhəmməd Peyğəmbəri (s) buyurduğuna əsasən) qocalda surələr, "Hud", "Vaqihəh", "Mürsəlat", "Nəbə" dir

Quranın neçə surəsi "Müqəttəə" hərfləri ilə başlayır?

Quranın 25 surəsi, "Müqəttəə" hərfləri ilə başlayır.

Qurani kərimin neçə surəsi "Əlhəmdulillah"la başlayır.

Quranda 5 surə "Əlhəmdulillah" cümləsi ilə başlayır. 1. "Həmd", 2. "Ənam", 3. "Kəhf", 4. "Səbə", 5. "Fatir".

Qurani məcidin ən uzun ayəsi hansıdır?

Quranın ən uzun ayəsi, Bəqərə surəsinin 282- ci ayəsidir.

Quranın zinəti nədir?

Məhəmməd Peyğəmbərin (s) buyurduğuna əsasən gözəl səslə tilavət, Quranın zinətidir.

Quran oxumamışdan öncə kimi şərrindən Allaha pənah aparmaq lazımdır?

Allah Quranda buyurur: Quran oxumaq istədiyin zaman qovulmuş Şeytanın şərrindən Allaha pənah apar.

Qurani kərimin neçə surəsi "İnna" kəlməsi ilə başlayır?

Dörd surə: 1. "Fəth", 2. "Nuh", 3. "Qədr", 4. "Kövsər".

Quranı kərimdə neçə nöqtə var?

Quranda 1015030 nöqtə vardır.

Allahın gözəl adlarından hansı 114 dəfə, Quran surələrinin sayı qədər, Allahın kitabında gəlmişdir?

"Rəhim" kəlməsi, 114 dəfə Quranda gəlmişdir.

Quranın neçə surəsi "İza" kəlməsi ilə başlayır?

Yeddi surə "İza" kəlməsi ilə başlayır: 1. "Vaqiəh", 2. "İnfıtar", 3. "Munafiqun", 4. "Təkvir", 5. "İnşiqaq", 6. "Zilzal", "Nəsr".

Quran neçə hərfdən ibarətdir?

Quranda 323671 hərf var.